

# BU, ŞİRİNDİL ALIŞANLIDIR...

***Yetmiş yaşından öncə düşündüklərim***

Şirindil Alışanlını 1970-ci ildən tanıyıram və bu tanışlığın əlli ikinci ili tamam olur. Amma tanışlıq hələ dostluq, həmrəylik demək deyil. Bizim dostluğumuz onun BDU-nu bitirib Ədəbiyyat İnstitituna gəlişiylə başlandı. 1976-cı ildi. Məmməd Cəfər Cəfərov, Mirzəağa Quluzadə, Kamal Talıbzadə, Əziz Mirəhmədov, Məmmədhüseyn Təhmasib, Kamran Məmmədov, Mirəli Seyidov, Qasım Qasımzadə, Yaşar Qarayev, Şamil Salmanov, Akif Hüseynov, Arif Hacıyev, Nadir Məmmədov, Azadə Rüstəmova kimi böyük bir pleyada təşkil edən iki nəsil görkəmli ədəbiyyatşünasların əhatəsində idik. Yolumuz, niyyətimiz məlum idi, amma cavan idik, Azərbaycan ədəbiyyatşünaslığının Baş Ştabında «generallarla, yüksək rütbəli zabitlərlə» bir cərgədə addımlamağımıza hələ illər, aylar gərək idi. İki arzumuz vardı – aspiranturanı vaxtında bitirib elmlər namizədi olmaq, bir də ədəbi qəzet və jurnallarda çıxış etmək. Mənim və Şirindilin ustad hesab etdiyimiz iki insanın – Kamal Talıbzadənin və Yaşar Qarayevin qayğısını həmişə hiss edirdik. Şirindillə dostluğum da o illərdən başlandı.

Yetmişinci illər sona çatırdı, artıq hər iki arzumuza çatmaq, təkcə institutda deyil, ədəbi aləmdə də görsənmək, imzamızı imzalar içində tanıtdırmaq istəyimiz tədricən gerçəkləşirdi. Bu yolda Şirindil Alışanlı daha fəal idi və bu istedadlı gənc, açıq etiraf edək ki, öz nəzəri hazırlığı və fərdi tənqidçi üslubu ilə seçilir, fərqlənirdi. 1977-1980-ci illərdə Şirindil SSRİ Elmlər Akademiyasının M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutunda təhsilini davam etdirdi, 1981-ci ildə görkəmli estetik Yuri Borevin rəhbərliyilə namizədlik dissertasiyanı müdafiə etdi. Amma Şirindil Alışanlı Moskvaya getməmişdən əvvəl özünü bir tənqidçi kimi təsdiq edə bilmişdi. Onun «Ədəbiyyat və incəsənət» qəzetində iki ortabab şairin şeir kitabları haqqında «barıt qoxulu» tənqidi məqalələri dərc olundu, bir neçə resenziyası və həmçinin elə o qəzetdə müasir Azərbaycan poemasının problemləri ilə bağlı geniş məruzəsi Şirindili kifayət qədər tanıtdırdı. Adətən, bir tənqidçinin özünü ədəbi aləmdə təsdiqləməsi üçün yaşın otuzu yetişkən dövrdür, amma Şirindilin yaşı heç otuza da çatmamışdı. Və sonrakı illər…

Şirindil Alışanlının bir insan və tənqidçi-ədəbiyyatşünas kimi yetişib formalaşmağında dörd məkanın və dörd şəxsiyyətin böyük rolu olub. Birinci

məkan Ədəbiyyat İnstitutudur ki, onun əmək kitabçasında lap başdan bu institutun adı qeyd edilib. Bu məkan Azərbaycan ədəbiyyatşünaslığının yuxarıda qeyd etdiyim Baş Ştabıdır. Ədəbiyyat İnstitutu indi də həmin missiyanı yerinə yetirir. Şirindili bu institutdan və bu institutu da hal-hazırda Şirindildən ayrı təsəvvür eləmirəm. O, Ədəbiyyat İnstitutunda pillə-pillə irəliləyib: əvvəlcə baş laborant, sonra elmi işçi, institutun elmi katibi, Ədəbiyyat nəzəriyyəsi bölməsinin müdiri, Tarixi poetika şöbəsinin müdiri və hazırda XX əsr (sovet dövrü) Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri. Təbii ki, İnstitut Elmi Şurasının və Müdafiə Şurasının üzvü. Ədəbiyyat İnstitutundan ayrılmamaqla o, «Elm» Redaksiya, Nəşriyyat və Poliqrafiya Nəşriyyatının direktoru vəzifəsində çalışıb.

Şirindilin Məmməd Cəfər müəllimə, Kamal Talıbzadəyə, Əziz Mirəhmədova həsr etdiyi yazılar var, ozamankı sonuncu tənqidçi nəslinin birincilərə dəqiq və son dərəcə obyektiv meyarlarla yanaşıldığı bu portret yazılarda hüsn-rəğbətdən daha çox, anlamaq, dərk etmək meyli əsas idi. Ancaq Şirindilin də, mənim də, ozamankı bir çox cavan alimlərin də bircə kumiri vardı – o da Yaşar Qarayev idi. O Yaşar Qarayev ki, hamımızın yekdil fikrini Şirindil ona həsr etdiyi yazıda belə ifadə etmişdi: «XX əsr Azərbaycan humanitar fikrinin tarixi, nəzəri və müasir problemlərini Yaşar Qarayevsiz təsəvvür etmək qeyri-mümkündür. Yaşar Qarayev humanitar elmlərimizin ən aktual, böyük milli-ictimai tutum kəsb edən problemləri haqqında söz demək səlahiyyəti qazanmışdı. «Ədəbiyyat filosofu», «Tənqidimizin şairi», «Elmimizin möcüzəsi» kimi təyinlərlə, epitetlərlə qiymətləndirənlər yanılmırlar». Şirindil Alışanlı Yaşar Qarayevdən, onun adı ilə bağlı bir məktəbdən çox şey öyrənib. Yaşar müəllimlə Şirindil arasında çox səmimi bir münasibət vardı.Yeri gəlmişkən deyim: Yaşar müəllim ağır xəstə idi, işdən çıxıb evə gedəndə özünü itirib Akademiyanın qapısı ağzında yerə yıxılmışdı. Onu Şirindil görüb dərhal xəstəxanaya aparmışdı, qayğısını çəkmişdi...

İkinci məkan M.Qorki adına Dünya Ədəbiyyatı İnstitutu və bu məkanın ozamankı bütün SSRİ miqyasında tanınan və dünyada da bir estetika alimi kimi təqdir olunan Yuri Borev idi. Şirindil üç il onun elmi rəhbərliyi altında düzgün metodoloji axına qoşuldu, gələcək tənqidçi-ədəbiyyatşünaslıq fəaliyyəti üçün gərəkli olan istiqamətlərə, meyillərə yiyələndi. Şirindilin elmi-nəzəri məqalələrində görkəmli rus alimlərinin əsərlərinə tez-tez müraciət olunur – Çernışevskidən tutmuş Xrapçenko, Baxtin, Vinoqradov, Lixaçev və Veselovskiyə qədər… Milli bir ədəbiyyatşünasın təkcə milli məkana sığınıb yalnız ondan faydalanması təbii ki, kəsir sayıla bilməz, amma etiraf edək ki, rus ədəbiyyatşünaslıq elmi dünyada birinci sıradadır və Şirindil Alışanlı da öz elmi-nəzəri mülahizələrində o alimlərin fikirlərinə istinad edir. Lakin istinad etmək qətiyyən sitatbazlığa çevrilmir, milli ədəbi-elmi təcrübəni təsdiqə yetirməyə xidmət edir.

Üçüncü məkan Azərbaycan poeziya məkanıdır. Şirindil Alışanlının bir sıra yazıları müasir poeziyaya, onun problemlərinə və ayrı-ayrı şairlərin yaradıcılığına həsr olunub. O, Rəsud Rzanı, Bəxtiyar Vahabzadəni, Hüseyn Arifi, Aşıq Şəmşiri, Nəriman Həsənzadəni, Qasım Qasımzadəni, Məmməd Arazı, Cabir Novruzu, Vaqif Səmədoğlunu, Məmməd İsmayılı, Məmməd

Aslanı, Ağa Laçınlını, Adil Cəmili çox sevir və bu sevgi həm onun məqalə və resenziyalarında, icmal məqalələrində tərifə yox, professional təhlilə çevrilir. Ancaq bir şair var ki, Şirindil Alışanlının elmi-nəzəri fikirlərində, ədəbiyyat tarixinin araşdırılması istiqamətində meyar rolunu oynayır. Şirindil hətta müasir bir şairin yaradıcılığından söz açanda da o, böyük şairin yaradıcılığından gələn «bir dad, bir duz» axtarır. Bu, böyük şair Səməd Vurğundur. Mir Cəlal müəllimin ifadəsiylə desək, «Azərbaycanı şeirə gətirən Səməd Vurğun». O, Səməd Vurğunu təkcə böyük şair kimi xatırlamır, həm də onun elmi-nəzəri fikir dünyasını araşdırır. Və sübut edir ki, Səməd Vurğun «şair-ədəbiyyatşünas» olmamışdır, Səməd Vurğun indinin özündə də aktuallığını itirməyən bir çox elmi-nəzəri məqalələrin müəllifidir. Nəzəriyyəçi alimdir. Şirindil yazır ki: «M.F.Axundovdan sonra məhz S.Vurğun dünya nəzəri-estetik fikrinin dövriyyəsinə daxil olmuşdur». Elə onun Sovet yazıçılarının İkinci qurultayında etdiyi məruzə o illərdə böyük sensasiya doğurmadımı?

Nəhayət, dördüncü məkan. Laçın-Kəlbəcər mühiti və bu mühitin yetirməsi olan Hüseyn Kürdoğlu. Hüseyn Kürdoğlu Şirindilin böyük qardaşıdır və Şirindilin mənəvi tərbiyəsində, xüsusilə poeziyanı, folkloru dərindən mənimsəməsində böyük rol oynayıb. Hüseyn Kürdoğlu, mənim fikrimcə, qeyri-adi poetik istedada malik bir şair idi və onun şairliyi xalq poeziyasının XX əsrdəki müasir tapıntılarından biri idi – daha çox iki Hüseynin – Hüseyn Arifin və Hüseyn Kürdoğlunun səyi ilə qoşma da, gəraylı da, bayatı da və xalqın milli etnoqrafik, ozan-aşıq mədəniyyəti müasir poetik təfəkkürün işığında canlandı. Yaşar Qarayev, Bəkir Nəbiyev, Tofiq Hacıyev, Qəzənfər Paşayev Hüseyn Kürdoğlunun poeziyasından bu xüsusda geniş söz açıblar. Ailədə böyük qardaşın açdığı yol-sənət sahəsi heç olmasa kiçik qardaşların birinə təsirsiz qalmır və Şirinqdil Alışanlı Hüseyn Kürdoğlunun elmi və poetik ailə dərslərini yaxşı mənimsədi (Hüseyn Kürdoğlu həm də şərqşünas alim idi). Şirindil şair yox, alim oldu, amma şeiri duymaq, poeziya haqqında fikir söyləməkdə Hüseyn Kürdoğlunun rolunu danmaqmı olar?

Şirindil Alışanlının müxtəlif illərdə çap olunmuş kitablarına nəzər yetirirəm: «Sözün estetik yaddaşı» (1994), «Ədəbi-bədii düşüncənin sərhədləri» (2010), «Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı» (2011), «Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi» (2013), «Sözün yaşamaq haqqı» (2022). Mənə bağışladığı nəşrlər bunlardır...

Oxucular üçün aydın təsəvvür yaransın deyə, ilk növbədə, Şirindil Alışanlının ədəbi-elmi kimliyini müəyyənləşdirmək istərdim. O, nəzəriyyəçi alimdirmi? O, ədəbiyyat tarixçisidirmi? O, tənqidçidirmi? Hansının birinci olduğunu təyin etmək niyyətim yoxdur. Amma Şirindil Alışanlının yaradıcılığında bütün bunları bir-biriindən təcrid etmək olmaz. Elmin nəzəriyyəsinə yiyələnmədən nə ədəbiyyat tarixçisi, nə də tənqidçi olmaq mümkün deyil. Amma nəzəriyyəni mükəmməl mənimsəməklə də iş bitmir, nəzəri fikirlər öz reallığını və təsdiqini konkret ədəbi hadisələrin təhlilində tapır. Bu vəhdəti biz ilk dəfə Yaşar Qarayevin yaradıcılığında görmüşük və Şirindil Alışanlı da ustadı kimi mənimsədiyi nəzəri fikirləri reallaşdıra bilir.

Bu yazıda mən Şirindil Alışanlının bir tənqidçi-ədəbiyyatşünas kimi fəaliyyətinin ən mühüm – aparıcı mövzularından ikisi haqqında söz açmaq istəyirəm (əlbəttə, digər yazılarını da unutmayacağam).

Şirindil Alışanlı «Sözün estetik yaddaşı» kitabını «Tarixi poetika: ədəbiyyatşünaslığımızın təcrübəsi və vəzifələri» məqaləsi ilə açır. Öncə qeyd etdim ki, Şirindil bir müddət Ədəbiyyat İnstitutunda «Tarixi poetika» şöbəsinin müdiri olub. Tarixi poetika ədəbiyyatşünaslığın ən çətin şöbələrindən biridir və Azərbaycan ədəbiyyatşünaslığında kifayət qədər işlənməmişdir, bu sahədə müuəyyən bir boşluq var. Bir var ümumi nəzəri poetika, bir də var tarixi poetika. Şirindil M.Xrapçenkonun bir fikrinə istinad edir: «Əgər ümumi nəzəri poetika əsasən bədii əsərin quruluşu və onun yaranma formalarını öyrənirsə, tarixi poetika gerçəkliyin bədii əksinin üsul və vasitələrinin tarixi təkamülünü böyük masştabda, müxtəlif xalqların ədəbi irsi və janrların fonunda tədqiq edir». Məqalədə tarixi poetika haqqında bir çox məsələlər araşdırılır və mən bu məsələlərin üzərində dayanmaq istəmirəm, ancaq Şirindilin gətirdiyi bir misalı nəzərə çarpdırmaq isəyirəm ki. O yazır: «Mir Cəlalın «Füzuli sənətkarlığı» monoqrafiyası ədəbiyyatşünaslığımızda ilk əsər idi ki, poetik kateqoriyaların təkamülü prosesi sistemli, müqayisəli təhlil üsulu ilə tədqiq edilirdi. Füzulinin bəşər bədii təfəkkürünün inkişafında müstəsna rolu, onun bədii kəşfləri bu monoqrafiyada elmi təhlilin məntiqi ilə tədqiq edilirdi. Burada poetik sistemin tədqiqi tarixi biçimdə aparılır. Xaqani, Nizami, Nəsimi, Xətai, Həbibi poetikasının ənənələri fonunda müqayisəli təhlillər şairin poetikasındakı heyrətamiz yeniliyi göstərməyə imkan verir».

Şirindil Alışanlının müasir ədəbiyyatşünaslığın ən mühüm problemləri ilə bağlı fikir və mülahizələrini onun adını çəkdiyim digər kitablarında da izləmək olar. Bu fikir və mülahizələrin ən çox cəm olduğu «mərkəz» «Ədəbi-nəzəri fikrin tarixiliyi və müasirliyi» və «Müasir humanitar təfəkkür və Azərbaycan ədəbiyyatşünaslığı» kitablarındakı məqalələrdə öz əksini tapır. Bu məqalələrdə əks olunan fikirlər XX əsrdə Azərbaycan tənqidi və ədəbiyyatşünaslığının müxtəsər gedişatıdır, bu gedişatda Ş.Alışanlı tarixiliyi və müasirliyi bir-birini şərtləndirən və bir-birinin davamı olan proseslər kimi tədqiq edir. Tarixi-siyasi gerçəklik zəminində XX əsr ədəbi fikri «tarixi müəyyən edən şəxsiyyətlərin fəaliyyəti» ilə gerçəkləşir. Ş.Alışanlı yazır: «Hər bir xalqın tarixinin və onun mənəvi obrazının yaranmasında ədəbi şəxsiyyətlərin rolu bütün cansız salnamələrdən irəlidədir. Yazıçılar xalqın obrazını yaratdıqları kimi, içərisində də hər bir tarixi ədəbi şəxsiyyətin də obrazı vardır. Bu gün xalqın öz M.F.Axundovu, öz Mirzə Cəlili, öz Sabiri, öz Səməd Vurğunu, nəhayət, öz Qabili vardır. Və heç şübhəsiz ki, bu obrazlar XX əsrin ədəbi-ictimai və siyasi-ideoloji kontekstində formalaşmışdır».Təbii ki, Ş.Alışanlı XX əsr sovet dövrü ədəbi şəxsiyyətləri ətrafında mövcud olan miflərin yaranmasını da nəzərdən qaçırmır. Yazır ki: «dahi, klassik, böyük, tanınmış, istedadlı, görkəmli təyinləri, əsasən ideoloji meyarlara görə təqdim edilmiş Lenin mükafatı, Stalin, sonralar dövlət mükafatı, xalq şairi, xalq yazıçısı, SSRİ Ali Sovetinin deputatı və s. ədəbi şəxsiyyət haqqında mif yaradıcılığının tipik əlamətləri idi. Bu gün də eyni stereotiplər davam

edir və mifləşdirmə prosesinə yeni təyinlər əlavə olunur və sənətkarın nekroloquna qədər davam edir».

Şirindil Alışanlı öz kitablarında elə problemlərdən söz açır ki, o problemlər bu və ya digər dərəcədə milli ədəbiyyatşünaslıqda ayrı-ayrı müəlliflər tərəfindən tədqiq olunub. Məsələn, yaradıcılıq metodu ilə bağlı M.Cəfər müəllimin, Mirzə İbrahimovun, Mirzəağa Quluzadənin, Yaşar Qarayevin, Arif Hacıyevin, Azadə Rüstəmovanın, Nadir Məmmədovun, Həsən Quliyevin, Xeyrulla Məmmədovun və b.-nın romantizm və realizmlə bağlı monoqrafiyaları, məqalə və tezisləri bizə yaxşı tanışdır. Necə deyərlər, iş görülüb, tədqiqatlar göz qabağında. Ancaq romantizm və realizmlə bağlı məsələlərdə gəlinən nəticələri ümumiləşdirmək və yaradıcılıq metodu ətrafında hələ 20-30-cu illərdə başlanan və sonrakı onilliklərdə də davam edən fikirlərə aydınlıq gətirmək və təbii ki, bugünün tənqidi meyarları ilə onları qiymətləndirmək lazımdır. Ş.Alışanlı M.F.Axundovun, Cəfər Cabbarlının, Hənəfi Zeynallının, Əli Nazimin, Səməd Vurğunun, Məmməd Cəfərin, Mir Cəlalın, Kamal Talıbzadənin, Yaşar Qarayevin, Arif Hacıyevin romantizm və realizmlə bağlı fikirlərini bədii metod konsepsiyasının təşəkkülü və inkişaf mərhələləri kimi təqdim edir. Və bizə məlum olur ki, niyə M.F.Axundov «romantik poeziya ilə epiqonçu şeiri eyni mizan-tərəzi ilə» niyə qiymətləndirir və deyirdi ki: «Füzuli şair deyil və xəyalatında əsla təsir yoxdur, ancaq nazimi-ustaddır». Və bizə məlum olur ki, niyə Cəfər Cabbarlı sırf romantik sənətkar olan Hüseyn Cavid haqqında yazır ki: «O, gah romantik, gah idealist, gah realist kimi sentimentalistdir. Biz Cavidə göstərməliyik ki, onun yaradıcılıq metodu düzgün deyildir. Cavid məsələni dərindən görə bilmir, ya da görə bilmək istəmir». Ş.Alışanlı Hənəfi Zeynallının Hüseyn Cavid sənətiylə bağlı fikir və mülahizələrini yüksək qiymətləndirir, çünki Hənəfi Zeynallı Hüseyn Cavid sənətindəki estetik prinsipləri həyatın romantik dərki ilə bağlayırdı. Əli Nazimin, Mustafa Quliyevin, Mehdi Hüseynin, M.K.Ələkbərlinin Cavid yaradıcılığı ilə bağlı yanaşmaları sırf sosioloji mövqeni ifadə edirdi. Bütün bu sosioloji yanaşmalar «sosialist realizminə yiyələnmək» prinsipi ilə bağlı idi. Ş.Alışanlı Səməd Vurğunun və Mir Cəlalın yaradıcılıq metodu ilə bağlı fikirləri üzərində geniş söz açır. Səməd Vurğun, onun fikrincə, «Azərbaycan ədəbiyyatı tarixinə həm də bədii metodların təkamülü tarixi kimi nəzər yetirirdi». Şair Səməd Vurğun otuzuncu illərdən başlayaraq klassik irsə həsr olunan bir sıra məqalələr (xüsusilə, «Oktyabr və Azərbaycan ədəbiyyatı») yazdı, ədəbiyyatda metod tiplərinə münasibət bildirdi. Öz məqalələrində dəfələrlə qeyd edirdi ki, «Azərbaycan sovet ədəbiyyatı milli klassik ədəbi irsin, o cümlədən, dünya bədii fikrinin qazandığı sənətkarlıq təcrübəsi zəminində formalaşıb inkişaf etməlidir». Əlbəttə, bu yazıda mən Ş.Alışanlının S.Vurğunun romantizm və realizmlə, həmçinin sosialist realizmi ilə bağlı fikirlərini təfərrüatı ilə şərh etmək istəmirəm. Amma bir sıra məqalələrində yaradıcılıq metodu ilə bağlı bəzi yanlış mülahizələrə baxmayaraq, S.Vurğunun bir nəzəriyyəçi alim kimi təqdim edilməsi sübutlarla-dəlillərlə isbat olunur. Mir Cəlal müəllimin «Azərbaycanda ədəbi məktəblər – 1905-1917)», M.Cəfər müəllimin «Azərbaycan ədəbiyyatında romantizm», Yaşar Qarayevin «Realizm, sənət, həqiqət», Seyfulla Əsədullayevin sosialist realizmilə bağlı monoqrafiyaları da

əhəmiyyətli tədqiqini tapır. Və bu sırada Yaşar Qarayevin «maarifçi realizm» konsepsiyası Azərbaycan ədəbiyyatşünaslığında yeni bir hadisə kimi qarşılandı. Ş.Alışanlı yazır: «Y.Qarayev əsaslandırır ki, Şərq bədii fikrinin inkişaf modeli Avropa modeli ilə uyğun gəlmir. Klassik yazılı ədəbiyyatın aşağıdakı inkişaf sxemi irəli sürülür: orta əsrlər romantik ədəbiyyatı, XVIII əsrin erkən realizmi, XIX əsr maarifçi realizmi, XX əsrin yeni romantizmi. Y.Qarayev həmçinin Azərbaycan realizmini üç mərhələyə ayırır: maarifçi realizm, XX əsrin tənqidi realizmi, sosialist realizmi».

Bu yazıda icmalçılığa, Alışanlının məqalələrinin ardıcıl şərhinə yol vermək istəmirəm. Yalnız bunu demək istəyirəm ki, Alışanlı ədəbiyyatşünaslıqda indiyə qədər mövcud olan problemlərə və bu problemlərin elmi-nəzəri təcəssümü olan əsərlərə öz baxış bucağını müəyyənləşdirir. Bu baxış bucağı müasir elmi təfəkkürün, dünya filoloji fikrinin son əlli ilinin nailiyyətlərinə əsaslanır.

Mənim üçün bu yazıda Şirindillə bağlı üç məsələ qalır. Birincisi: tənqidçi Şirindil haqqında söz açım. İkincisi: bu tənqidçi və ədəbiyyatşünasın dili, üslubu və yazılarının janrları barədə nəsə deyim. Üçüncüsü: onunla bağlı bir neçə arzumu ifadə edim.

Şirindil Alışanlı ədəbiyyata TƏNQİDÇİ kimi gəlib. Jül Renarın belə bir fikrini xatırlayıram: «Tənqidçi öz rotasına atəş açan əsgərdir». Şirindil də yetmişinci illərin ortalarında öz rotasının (ədəbi aləmin) kifayət qədər tanınmış iki «zabitinə» atəş açdı, onların şeir kitablarını tənqid etdi. Bu tənqidi nüansları biz Şirindilin sonralar «Ədəbi proses» toplularında «Lirik şeirin imkanları», «Poeziya: axtarışlar, tapıntılar» icmallarında da gördük. Sonrakı illərdə də sırf tənqidçii maneralarını onun digər məqalə və resenziyalarında hiss etdik. Təkcə yazılarında deyil, şifahi çıxışlarında da Şirindil tənqidçi olduğunu sübut edir. Məsələn, institutun elmi və müdafiə şuralarında Şirindil müəyyən bir məsələ ilə əlaqədar səsini içəri salmır, bəzən susmaq bilmir. Və çoxu da bu məqamda onu haqlı sayır. Ancaq tənqidçini təkcə öz «rotasına atəş açan əsgər» kimi xarakterizə etmək olmaz. Tənqidçi təfəkkürü ədəbi əsəri, yaxud yazıçının əsərini təhlil mədəniyyəti ilə bağlıdır. Necə ki, biz bu tənqidçi mədəniyyətini, professional təhlil üsulunu Məmməd Arifin, Məmməd Cəfərin, Mehdi Hüseynin, Cəfər Cəfərovun, Yaşar Qarayevin, Kamal Talıbzadənin, Elçinin, İsa Həbibbəylinin, Aydın Məmmədovun yazılarında görmüşük. Şirindilin təhlil mədəniyyəti, hər hansı əsərə münasibətində duyub dərketmə prinsipi əsas yer tutur. Onun «Lirik şeirin imkanları» məqaləsində bu cümlələrə diqqət yetirin: «Yersiz belletrizm, konkret mövzunun özünəməxsus cəhətləri haqqında heç bir orijinal poetik məlumat verməyən ənənəvi epitetlər sözə, onun poetik ləyaqətinə qarşı ikrah hissi doğurur. Ənənəvi poetik təsvir sistemindən, bədiilik qanunları baxımından savadsız bəhrələnmə təkcə bir və ya bir neçə şairin uğursuzluğu olaraq qalmayıb, lirikanın inkişafını qiymətləndirmək məqamında ciddi maneçilik törədir, poetik ənənənin özünü də qavramaqda, dərk etməkdə geniş oxucu kütləsinin zövqünü korşaldır». Bu məqaləni Alışanlı yetmişinci illərin sonlarında qələmə alıb. Loru dildə desəm, əsl tənqidçi xəmirindən yoğrulub. Çox təəssüf ki, bu gün çox şairin

«yaradıcılığına» aid oluna bilər. Yeri gəlmişkən qeyd edim ki, Şirindilin aparıcı mövzularından biri də ədəbi tənqid və onun tarixi ilə bağlıdır. O, ayrı-ayrı tənqidçi və ədəbiyyatşünasların müxtəlif illərdə çap olunan kitabları haqqında resenziyalar yazır. «Ədəbi-nəzəri fikrin korifeyləri» silsilə məqalələrində isə (bu yazıda onlar xatırlanır) doğrudan da tənqidin – ədəbiyyatşünaslığın korifeyləri kimi tanınan şəxsiyyətlərdən söz açır.

Şirindilin dili, üslubu haqqında nə deyə bilərəm. Olsun ki, çoxları onun bəzən mürəkkəb konstruksiyalı cümlələrini xoşlamırlar. Amma Şirindilin elmi təfəkkürü –məntiqi düşüncə tərzi bunu tələb edir, yəni Şirindilin üslubunda məhz elmi təfəkkürün tələb etdiyi çalarlarla qarşılaşırıq. Bir də ki, hər bir tənqidçinin öz fərdi üslubu olur və Şirindilin dili də, ifadə tərzi də onun özünə məxsusdur. Və ədəbiyyatşünaslar – mütəxəssislər onu yaxşı başa düşür, əsas yazılardakı fikirlərdir. O ki qaldı onun bir tənqidçi-ədəbiyyatşünas kimi hansı janrlara müraciət etməyi, deyə bilərəm ki, Alışanlı problem məqalələrə daha çox meyil edir. İkincisi, resenziya janrıdır ki, onun «Sözün yaşamaq haqqı» adlı son kitabında (elə əvvəlki kitablarında da) nə qədər istəsən, resenziya görə bilərsən, amma bu resenziyalar sovet dövrünün və indiki çağın da bəzi ənənəvi resenziyalarından tamamilə fərqlənir. Şirindilin müraciət etdiyi bir janr var ki, bu barədə söz açmamaq olmur. O da portret janrıdır. Sadəcə, portret yox, elmi portret janrı. Akademik Məmməd Cəfər haqqında «Səni kim unudar», akademik Həmid Araslıdan söz açan «Klassikləri oxumağın Həmid Araslı dərsləri», Xalq yazıçısı İlyas Əfəndiyevin həyat və yaradıcılığından bəhs edən «Sənətkarın yaşamaq haqqı», böyük tənqidçi Yaşar Qarayevi daha mükəmməl tanıdan «Yaşar Qarayev: yaxından və uzaqdan», Xalq şairi Bəxtiyar Vahabzadə haqqında yazdığı «Zamanın sınağında», professor – unudulmaz Abbas Zamanov şərəfli ömür yolunu bizə xatırladan «XX əsr ədəbi gedişatın şahidi», professor Qəzənfər Paşayev haqqında «Kərkük sevdalı filoloq» və «Düzqırıxlıdan başlanan yol», «Xalq yazıçısı Elçini – onun çoxcəhətli yaradıcılığını səciyyələndirən «Sənətkarın obrazı» yazıları məhz elmi portret janrındadır. Bu janrda, mən deyərdim ki, Alışanlının qələmi daha polifonikdir – elmi təhlillər, xatirələr, haqqında söz açdığı sənətkar haqqında elmi, ədəbi ictimaiyyətin rəyləri, bir az da bədii publisistika.

Şirindil Alışanlının 70 illiyi ərəfəsində bu yazını başa çatdıranda ona irad kimi yox, arzu kimi bir neçə sözümü də çatdırmaq istəyirəm. Onun müasir ədəbi prosesdə daha fəal iştirakını arzulayıram. Bir tənqidçi kimi də yeri gələndə kəsərli sözünü eşidək. Və çox arzulayardım ki, onun Mikayıl Müşfiq, Əli Kərim, Ələkbər Salahzadə, İsa İsmayılzadə, Sabir Əhmədli yaradıcılığı ilə bağlı portret yazılarını görüm. İnşallah, yazar…



Şirindil Alışanlının ilk kitabının adı «Sözün estetik yaddaşı»dır. Və Şirindil bütün yaradıcılığı boyu sözü və sözü yaradanları bizə sevdirib. Əsl sevgi isə əbədidir, uzunömürlüdür.

***Vaqif YUSİFLİ***